**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 12/4

Bakı şəhəri 01 noyabr 2017-ci il

Akademik Cəmil Quliyevin
90 illik yubileyi haqqında

2017-ci il dekabrın 16-da görkəmli tarixçi alim, tarix üzrə elmlər doktoru Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Cəmil Quliyevin anadan olmasının 90 ili tamam olur.

Cəmil Quliyev 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş, 1946-cı ildən təhsilini M.V.Lomonosov adına Moskva Dövlət Universitetində davam etdirmiş, 1949-cu ildə həmin universiteti müvəfəqiyyətlə bitirmişdir. O 1952-ci ildə namizədlik, 1971-ci ildə isə doktorluq dissertasiyalarını uğurla müdafiə etmiş, 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1980-cı ildə həqiqi üzvü seçilmişdir.

1952-ci ildən Azərbaycan Dövlət Universitetində müəllim, dosent, 1958-1972-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Partiya Tarixi İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmış, 1972-1978-ci illərdə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, 1976-1990-cı illərdə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, 1975-1988-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru, 1989-1990-cı illərdə Azərbaycan Dövlət Universitetinin rektoru olmuşdur. 1997-2001-ci illərdə AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi və ömrünün sonunadək Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvü olmuşdur.

Cəmil Quliyev ölkəmizdə tarix elminin inkişafına töhfələr verən alim kimi tanınmışdır. O, Azərbaycanın müasir tarixi baxımından əhəmiyyət kəsb edən dövrlərin bir çox problemlərinin tədqiqi ilə bağlı kitab və monoqrafiyaların, 400-ə yaxın məqalənin müəllifi olmuşdur. Onun rəhbərliyi və yaxından iştirakı ilə oncildlik “Azərbaycan Sovet Ensiklopediyası”, ikicildlik “Uşaq Ensiklopediyası”, “Naxçıvan Ensiklopediyası” və yeddi cildlik “Azərbaycan tarixi” işıq üzü görmüşdür.

Görkəmli alimin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Cəmil Quliyev Əməkdar elm xadimi fəxri adına və Dövlət Mükafatına layiq görülmüşdür. O, 1997-ci ildə

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə “Şöhrət”, 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə “İstiqlal” ordenləri ilə təltif edilmişdir.

AMEA-nın həqiqi üzvü Cəmil Bahadur oğlu Quliyevin Azərbaycan tarix elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illiyi ilə əlaqədar, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın həqiqi üzvü Cəmil Quliyevin 90 illik yubileyi ilə əlaqədar AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunda elmi sessiya keçirilsin.
2. AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, kütləvi informasiya vasitələrində alimin həyat və yaradıcılığı geniş işıqlandırılsın.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ MƏRKƏZİ APARAT PROTOKOL ŞÖBƏSİ